Support for Improvement in Governance and Management
A joint initiative of the OECD and the EU, principally financed by the EU
SIGMA

## 17-ci Xülasə

Avqust 2011-ci il

**Dövlət satınalmaları**

# E-satınalma

MÜNDƏRİCAT


- E-satınalma nədir?
- E-satınalma nə üçün istifadə edilməlidir?
- Qənaət və təkmilləşmə örnəkləri
- Direktiv elektron satınalmaları necə dəstəkləyir və təşviq edir
- Satınalma vasitələri
- E-satınalma sistemlərinin istismara verilməsi və idarə edilməsi haqqında qeyd


EUROPEAN COMMISSION
OECD BETTER POLICIES FOR BETTER LIVES

www.sigmaweb.org
Bu sənəd Avropa İttifaqının maliyyə yardımı ilə hazırlanmışdır. Burada ifadə olunan fikirlər heç vəchlə Avropa İttifaqının rəsmi rəyi kimi qəbul edilə bilməz və İƏİT, yaxud ona üzv dövlətlərin və ya SIGMA proqramında iştirak edən benefisiar ölkələrin fikirlərini əks etdirməyə bilər.

**E-satınalma nədir?** Sadə dillə desək, e-satınalma satınalma prosesində kağızların istifadəsinə əsaslanan prosedurların informasiya texnologiyalarına əsaslanan kommunikasiya və əməliyyatlarla əvəz edilməsini ifadə etmək üçün istifadə edilən universal termindir. E-satınalma satınalmanın effektivliyini artırmaq və prossesi daha səmərəli etmək üçün vasitə rolunu oynaya bilər.

E-satınalma texnologiyasından və proseslərindən satınalma prosesinin müxtəlif mərhələlərində, o cümlədən tender bildirişlərinin nəşri, tender sənədlərinin təmin edilməsi, təkliflərin təqdim edilməsi, qiymətləndirmə prosesi, təltif edilmə haqqında bildirişin verilməsi, sifariş, hesab-fakturanın verilməsi və ödəniş zamanı istifadə edilə bilər.

**E-satınalma nə üçün istifadə edilməlidir?** E-satınalma sistemlərindən və proseslərindən istifadənin aşağıdakılar daxil olmaqla bir sıra üstünlükləri vardır:

- Ayrı-ayrı satınalmalar zamanı **inzibatı xərclərin azalması**;
- **Sadələşdirilmiş** satınalma prosedurları;
- **Daha sürətli** satınalma prosedurları**;**
- Həm ayrı-ayrı tender fürsətləri haqqında məlumatın təmin edilməsi, həm də tenderlərin daha aydın və geniş mənzərəsinin yaradılması ilə **şəffaflığın artırılması**;
- **Satınalmanın daha yaxşı izlənməsi;**
- **Sərhədlərarası rəqabətin təşviq edilməsi -** kağız sənədlərin istifadəsinə əsaslanan satınalma proseslərindən irəli gələn maneələrin azaldılması ilə;
- **Mərkəzləşdirilmiş satınalma idarəetməsinin inkişafının dəstəklənməsi** satınalma ilə bağlı sənədlərin hazırlanmasına sərf olunan xərclərin azaldılması və satınalmanın idarə edilməsində miqyas effekti üstünlüklərindən istifadə ilə nəticələnir;
- **Daha geniş inzibati modernləşmə və sadələşmə**, dövlət və cəmiyyət daxilində informasiya texnologiyalarından istifadənin yayılmasının və müxtəlif inzibati proseslərin inteqrasiyasının təşviq edilməsi.

Avropa Komissiyası *Aİ-də e-satınalmaların istifadəsinin genişləndirilməsi haqqında* yekun yaşıl sənəddə e-satınalmanın tətbiq edilməsinin faydaları ilə bağlı aşağıdakı

nümunələri çəkir. [1]

### Qənaət və təkmilləşmə örnəkləri

İtaliyanın Emilia Romagna regionunda "Intercent ER" agentliyi e-bazar, e-kataloq və e-hərraclar daxil olmaqla e-satınalma xidmətləri təklif edir və hal-hazırda 539 idarədə (yerli orqanların 90%-i) müraciət məntəqələri mövcuddur. 2008-ci ildə agentlik € 419 milyona bərabər dəyəri olan əməliyyatlar yerinə yetirməklə, 67.6 milyon avro məbləğində səmərəlilik mənfəətinə və 45 adamın il ərzində sərf elədiyi vaxta qənaət etməyə nail oldu.

Avstriya Federal Satınalma Agentliyi federal orqanları tərəfindən həyata keçirilərn satınalmaları e-satınalma funksiyaları vasitəsi ilə mərkəzləşdirir. 2008-ci ildə €830 milyon avro həcmində satınalmanın həyata keçirilməsi müqabilində €178 milyon avroya qənaət edildiyi bildirilir. Əldə edilən mənfəətin nail olunmuş qənaətin yalnız 3%-nə bərabər olan illik istismar xərclərini əhəmiyyətli dərəcədə ötdüyü müşahidə edilir.

2005-ci il fevral ayının 1-dən etibarən Danimarkada satınalan təşkilatlara yalnız elektron hesab-fakturaları qəbul etməyə icazə verilir. Bu islahat ildə təqribən 15 milyon hesab-fakturaya təsir edir və nazirliklərdən tutmuş uşaq bağçalarına qədər bütövlükdə dövlət sektoruna şamil edilir. E-hesab fakturalardan istifadə vasitəsilə ildə €100 milyon məbləğində dövlət vəsaitinə qənaət ediləcəyi və əsasən daxili inzibati proseslərə ayrılan xərclərin azalacağı gözlənir.

Norveçdə "Ehandel" platforması təşkilatların sifarişlərin verilməsinə, malların, hesab-fakturanın alınmasına sərf olunan vaxta 20-40 faiz qənaətə nail olmasına, çatdırılma xərclərinin 2-10% civarında azalmasına kömək edir.

Birləşmiş Krallıqda "Buying Solutions" saytı 2008/09-cu il üzrə illik hesabatında £5 milyarddan artıq satışa köməklik göstərdiyini və £732 milyon qənaətə nail olduğunu bəyan edir. Birləşmiş Krallıq həmçinin e-hərracların istifadəsi vasitəsi ilə çox vaxt 10%-i ötən (hətta bəzən 45%-ə qədər) qənaətin əldə edildiyini və 2011-ci ilin sonuna qədər vergi ödəyicilərinin £270 milyona bərabər qənaət etməsi üçün e-hərracdan istifadənin planlaşdırıldığını bildirmişdir.

Portuqaliyada keçirilən araşdırmada Portuqaliya dövlət xəstəxanalarının 2009-cu ildə (kağızdan istifadəyə əsaslanan sistem vasitəsi ilə) müqavilə əsasında verdiyi dövlət sifarişləri 2010-cu il (e-satınalmanın istifadəsi) göstəriciləri ilə müqayisə edilirdi. Araşdırma nəticəsində məlum olmuşdur ki, e-satınalma müsabiqədə rəqabətin artmasına səbəb olduğundan 2010-cu ildə xərclərin 18% azalmasına nail olunmuşdur.

Qeyd edilməlidir ki, yuxarıda qeyd edilən qənaətlərə e-satınalma, çərçivə müqavilələri və mərkəzi satınalmanın kombinasiyası nəticəsində nail olunmuşdur. Ətraflı məlumat

[1]COM (2010) 571

üçün bax: *Satınalmalar haqqında 19-cu Xülasə və Satınalmalar haqqında 20-ci Xülasə - Mərkəzi satınalma orqanları*.

Avropa İttifaqı tender proseslərində e-satınalmadan istifadəni təşviq etmək (lakin məcburi öhdəlik yaratmamaq şərti ilə) və sürətləndirmək məqsədi ilə Dövlət sektorunda satınalmalar direktivinə (Direktiv 2004/18/EC) (Bundan sonra "Direktiv") xüsusi müddəalar daxil etmişdir. Bu müddəalar aşağıda təsvir edilir:

## Direktiv elektron satınalmaları necə dəstəkləyir və təşviq edir

E-satınalmanın istifadə edilmə dərəcəsi bir sıra amillərdən asılı olaraq dəyişə bilər. Bu amillərə yerli qanunvericilik, mövcud texnologiya, hər hansı elektron prosesin konkret bir mərhələyə və ya satınalma predmetinə uyğunluğu daxil ola bilər. Bu Xülasədə Direktivin satınalma proseslərində e-satınalmadan istifadəni necə təşviq etdiyi izah edilir, həmçinin e-satınalmanın istifadəsinə dəstək məqsədilə Komissiya tərəfindən maliyyələşdirilən və idarə edilən bəzi fəaliyyətlər haqqında məlumat verilir.

Qeyd edilməlidir ki, elektron yazışma (Direktivdə geniş tərifi verilir) və elektron proseslər Direktivdə göstərilən konkret şəraitlərlə məhdudlaşdırılmayaraq daha geniş istifadə edilə, hətta bütöv satınalma prosesinin, müqavilənin təltif edilməsindən sonrakı işlərin həyata keçirilməsi, e-elanın verilməsi və elektron hesab-fakturanın təqdim edilməsi üçün tətbiq oluna bilər.

**Elektron-elan - AİRJ bildirişlərinin elektron formada istifadəsi və əldə edilə bilməsi:** Direktiv Aİ satınalma qaydalarının tam tətbiq olunduğu növə və dəyərə aid müqavilələrlə əlaqədar Avropa İttifaqının Rəsmi Jurnalında (AİRJ) konkret bildirişlərin dərc edilməsini tələb edir. Bir qayda olaraq, bildirişlərin verilməsi satınalma prosesinin əvvəlində təsərrüfat subyektlərinin mövcud fürsət barədə məlumatlandırılması məqsədilə və həmçinin satınalma prosedurunun sonunda məcburi qaydada tələb olunur. Digər bildirişlər, məsələn, müqavilə haqqında daha əvvəl verilmiş bildirişə düzəliş edilməsi zərurəti yarandıqda və ya satınalma prosesi ləğv edildikdə tələb oluna bilər. Satınalan təşkilatların AİRJ-də könüllülük zəminində elan verməsinə də imkan yaradılır. Həmçinin bax: *Satınalmalar haqqında 6-cı Xülasə – Elanın verilməsi*.

AİRJ-də dərc olunan bütün bildirişləri standart formada SIMAP internet saytında tapmaq olar: www.simap.europa.eu. Avropa İttifaqında dövlət satınalmaları haqqında ən

vacib məlumatlar SIMAP portalından əldə edilə bilər. Standart formalı bildirişlər onlayn rejimdə tərtib oluna və elektron formada göndərilə bilər.

AİRJ-də dərc olunan bütün bildirişlər www.ted.europa.eu ünvanında ictimaiyyət üçün açıqdır və təsərrüfat subyektləri müvafiq müqavilə fürsətləri barədə məlumatlandırılmaq üçün qeydiyyatdan keçə bilərlər. http://www.ted.europa.eu/

### Dövlət səviyyəsində e-elan

Bir çox üzv dövlətlər müqavilələr haqqında elektron elanların milli internet saytlarda, o cümlədən milli satınalma agentliyinin və ya rəsmi qəzetlərin internet saytlarında dərc edilməsini tələb edilər və ya belə seçim imkan yaradırlar.

E- elanın verilməsi Aİ maliyyə həddinə çatmayan müqavilələr daxil olmaqla, bir çox müqavilələr üçün irəli sürülən ümumi tələbdir. Bu şəffaflığa zəmanət verilməsi və rəqabətin təşviq edilməsi üçün istifadə olunan cüzi xərc tələb edən və şəffaf vasitədir. Bax: *Satınalmalar haqqında 15-ci Xülasə – Dəyəri maliyyə həddinə çatmayan müqavilələr*

**İlkin məlumat bildirişindən istifadə edilməklə rəsmi satınalma prosesinin başlamasından əvvəl elanın verilməsi və ya Alıcı profili:** Direktiv satınalan təşkilatların bazarı gələcək potensial fürsətdən əvvəlcədən xəbərdar etməsinə icazə verir, lakin belə bir öhdəlik müəyyən etmir.

Əvvəlcədən elanın verilməsi həm satınalan təşkilat, həm də potensial təsərrüfat subyekti üçün, xüsusən əvvəlcədən planlaşdırmanın aparılması baxımından faydalıdır: İlkin məlumat bildirişi istifadə edildiyi təqdirdə, müəyyən şərtlər daxilində tenderin qanunla müəyyən edilmiş vaxt limitləri azaldıla bilər.

**Alıcı profilləri:** Bu kontekstdə onlayn alıcı profillərindən istifadə xüsusən yararlı ola bilər. Satınalan təşkilat internetdə öz "alıcı profili"ni yarada bilər. Alıcı profilinə satınalan təşkilat haqqında ümumi məlumat, eləcə də etibarlılıq müddəti davam edən tender

dəvətləri, planlaşdırılan satınalmalar, bağlanan müqavilələr və ləğv edilmiş prosedurlar haqqında məlumat daxildir.

Satınalan təşkilat standart formalı İlkin məlumat bildirişini öz alıcı profilində dərc edə bilər. Bu yanaşmadan istifadə edən satınalan təşkilat AİRJ-yə sadəcə qısa və standart formalı Alıcı profili bildirişi göndərir.

**Konkret müqavilə fürsəti haqqında əvvəlcədən elanın verilməsi:** Aİ satınalma qaydalarının tam tətbiq olunduğu növə və dəyərə aid müqavilələrdən söhbət getdikdə, standart formalı müqavilə haqqında bildirişin təsərrüfat subyektlərini müqavilə fürsətlərindən xəbərdar etmək məqsədilə AİRJ-də dərc edilməsi məcburi səciyyə daşıyır. Müqavilə haqqında bildirişlərin standart forması elektron formatda mövcuddur, onlayn rejimdə tərtib edilə və göndərilə bilər.

Müqavilə haqqında elektron bildirişlərin elektron formada göndərilməsinin, müqavilə və tender sənədlərinin elektron formada mövcudluğunun aşağıdakılar daxil olmaqla bir sıra üstünlükləri var:

> **Qanunla müəyyən edilmiş vaxt limitlərinin azaldılması:** Müqavilə haqqında bildirişlərin elektron şəkildə göndərilməsinin təşviq edilməsi məqsədi ilə qanunla müəyyən edilən bəzi vaxt limitləri azaldılır. Məsələn, məhdud iştiraklı prosedurda, AİRJ bildirişinin göndərilməsindən iştirak ərizələrinin alınmasına qədər olan qanunla müəyyən edilmiş müddət 37 gün olsa da, elektron vasitələrdən istifadə halında bu vaxt limiti yeddi günə qədər azaldıla bilər.
>
> Bununla yanaşı, müqavilə haqında bildirişin dərc edildiyi gündən etibarən bütün tender və müqavilə sənədləri, müqavilə haqqında bildirişdə göstərilən ünvanda, elektron formada, məhdudiyyətsiz və birbaşa əldə edilə bilən olduqda, iştirak ərizələrinin alınması üçün minimum vaxt limiti daha beş gün azaldıla bilər.
>
> **Maksimum söz sayı nəzərdə tutulmur:** Qeyri-elektron vasitələrlə göndərilən müqavilə haqqında bildirişlərin maksimum 650 sözdən ibarət olması tələb olunur. Onlayn elektron sistem vasitəsi ilə tərtib olunan və Avropa İttifaqının Rəsmi Jurnalına göndərilən bildirişlərə isə belə məhdudiyyət qoyulmur. Buna görə də sərbəstlik çoxalır və elan edilən müqavilə haqqında ətraflı məlumatın təmin edilməsi imkanı yaranır.

**Prosesin sonunda elanın verilməsi:** Əksər hallarda satınalan təşkilatdan satınalma prosesi tamamlandıqdan və müqavilə təltif edildikdən sonra müqavilənin təltif edilməsi

haqqında bildiriş dərc etmək tələb olunur. Yenə də, bu bildiriş onlayn rejimdə hazırlana və elektron formada dərc edilə bilər.

**Təsərrüfat subyektlərinin ixtisas qiymətləndirməsi:** e-satınalma proseslərindən təsərrüfat subyektlərinin uyğun ixtisasa malik olub-olmadığının müəyyən edilməsi prosesini asanlaşdırmaq üçün istifadə edilə bilər.

**E-Sertifikatlar və e-Attestasiyalar:** Direktiv satınalan təşkilatla təsərrüfat subyektləri arasında elektron yazışmaların istifadə edilməsinə icazə verir, bura e-sertifikat və e-attestasiyaların təqdim edilməsi də daxil edilə bilər. Bunlar təsərrüfat subyektləri tərəfindən xüsusi ixtisaslaşma və keyfiyyət seçimi tələblərinə uyğun olduqlarının nümayişi üçün təqdim edilən sənədli dəlillərin - ənənəvi kağızdan istifadəyə əsaslanan satınalma zamanı istifadə edilən sertifikat və attestasiyaların elektron ekvivalentləridir.

**eCERTIS:** eCertis Komissiya tərəfindən 2010-cu ilin oktyabr ayında yaradılmış ödənişsiz, onlayn soraq-məlumat vasitəsidir. Burada üzv dövlətlərdə, namizəd ölkələrdə və Avropa İqtisadi Zonası ölkələrində satınalma prosedurları zamanı tez-tez tələb olunan müxtəlif sertifikat və attestasiyalar haqqında ətraflı məlumat verilir. Bu, maraqlı tərəflərə tələb olunan və ya təmin edilən məlumatları başa düşməyə, qarşılıqlı qaydada tanınan ekvivalentləri müəyyən etməyə kömək edir. eCertis-in ünvanı: http://ec.europa.eu/markt/ecertis/login.do

**"Pan European Public Procurement Online (PEPPOL)" (Onlayn Ümumavropa dövlət satınalmaları) layihəsi**, "aşağıdan yuxarıya doğru" yanaşmasının nəticəsi, bura kağız sertifikatların elektron attestasiyalarla əvəzlənməsi məqsədi ilə Virtual Şirkət dosyeləri (VCD-lər) daxil olmaqla, standart məlumat təminatının asanlaşdırılması üsullarının nəzərdən keçirilməsi də daxildir. http://www.peppol.eu/

Təsərrüfat subyektlərinin ixtisaslaşması və seçimi haqqında ətraflı məlumat üçün bax: *Satınalmalar haqqında 7-ci Xülasə - Təsərrüfat subyektlərinin seçilməsi*.

**Təkliflərin onlayn rejimdə təqdim edilməsi:** Direktiv çərçivəsində buna da icazə verilir və bir neçə Aİ-yə üzv dövlətlərdə bu üsul təcrübədə tətbiq edilir.

**E-imzalar:** Üzv dövlətlərə elektron təkliflərin təkmilləşdirilmiş elektron imza ilə müşayiət edilməsini tələb etməyə icazə verilir. E-imzalar həmçinin satınalma prosesinin ixtisas qiymətləndirməsi və seçim mərhələlərində tələb oluna bilər. Bu tələbin təcrübədə tətbiqi əməliyyatların qarşılıqlı uyğunluğu məsələlərini mürəkkəbləşdirə bilər.

## Satınalma vasitələri

**E-hərraclar:** Elektron hərraclar ilkin təkliflərin təqdim edilməsindən və qiymətləndirilməsindən ibarət tender prosesinin tam həyata keçirilməsindən sonra, təsərrüfat subyektlərinin təkrar baxışdan keçirilmiş yekun təklifləri təqdim etməyə dəvət edilməsi metodudur. Elektron hərraclardan açıq prosedurun, məhdud iştiraklı prosedurun, bildirişin əvvəlcədən dərc olunduğu qapalı prosedurun, çərçivə müqaviləsinə əsasən və dinamik satınalma sistemlərində keçirilmiş kiçik müsabiqənin yekun mərhələsində istifadə edilə bilər.

E-hərraclar zamanı təsərrüfat subyektlərinə yeni, azaldılmış qiymətləri və/və ya təklifləri ilə bağlı digər elementlərə edilən dəyişikləri real vaxt rejimində və digər təsərrüfat subyektləri ilə birbaşa anonim rəqabət şəraitində təqdim etmək imkanı verən sistemdən istifadə olunur.

E-hərracdan yalnız spesifikasiyalar yetərli dəqiqliklə müəyyən edilə bildiyi hallarda istifadə edilə bilər. Təklifin yalnız elektron vasitə ilə qiymətləndirilmək üçün müvafiq olan elementləri e-hərracın predmeti ola bilər. Elektron hərraclar işlərin layihələndirilməsi kimi zehni əməyin istifadəsini nəzərdə tutan müəyyən iş təminatı müqavilələrinə və xidmətlərin satın alınması müqavilələrinə münasibətdə istifadə edilməməlidir.

Bütün hallarda elektron hərrac keçirmək üçün satınalan təşkilat müqavilə haqqında ilkin bildirişdə elektron hərrac keçirmək niyyətində olduğunu qeyd etməlidir.

**E-kataloqlar:** Direktivin deklarativ hissəsində e-kataloqlara dövlət satınalmalarının asanlaşdırılması üsulu, xüsusən çərçivə müqavilələrinə əsasən və ya dinamik

satınalma sistemləri daxilində həyata keçirilən satınalmalarda iştirak vasitəsi kimi istinad edilir.

Sadə dillə desək, e-kataloqlar təsərrüfat subyektlərinin təmin etdiyi mal və xidmətlərlə əlaqədar təfərrüatları əks etdirən ənənəvi kağız kataloqların elektron versiyalarıdır. Satınalan təşkilatın bir təchizatçının iştirakı ilə çərçivə müqaviləsi hazırlaması, daha sonra təchizatçının məhsullarının və qiymətlərinin əvvəlcədən razılaşdırılmış qaydada təsvir olunduğu e-kataloq əsasında fəaliyyət göstərməsi buna yaxşı nümunə ola bilər. Çərçivə müqaviləsi əsasında satınalma zamanı alıcılar məlumatı onlayn rejimdə əldə edə bilərlər, e-sifariş də nəzərdə tutulduğu halda isə bütöv satınalma əməliyyatını onlayn həyata keçirə bilərlər.

Potensial üstünlüklərə əməliyyat və inzibati xərclərin azalması, sifariş prosesinin sadələşdirilməsi, icazə verilən sistemlərdən kənarda icazəsiz satınalmaların məhdudlaşdırılması daxildir.

**Dinamik satınalma sistemləri:** Direktivə dinamik satınalma sistemlərinin təsis edilməsinə və fəaliyyətinə icazə verən ayrıca müddəa daxildir (DSS). DSS təkrarlanan standartlaşdırılmış satınalmalar üçün istifadə edilə bilən tam elektron sistemdir. Dinamik satınalma sistemi daha çox təsərrüfat subyektlərinin istənilən vaxt qoşula biləcəyi internet əsaslı, onlayn çərçivə müqaviləsi kimi fəaliyyət göstərir.

Satınalan təşkilat açıq prosedurdan istifadə etməklə sistem barədə elan verir. Bundan sonra təsərrüfat subyektləri satınalan təşkilatın tələblərinin təmin edilməsi şərtlərini əks etdirən ilkin təkliflərini təqdim edirlər. Uyğun ixtisasa malik, ilkin təklifi məqbul hesab edilən təsərrüfat subyektləri sistemə qəbul olunurlar. Dinamik satınalma sisteminin fəaliyyət müddəti ərzində təsərrüfat subyektləri iştirak üçün müraciət edə və ilkin təkliflərini verə bilərlər. Bütün təsərrüfat subyektləri istənilən vaxt təkmilləşdirmə məqsədi ilə ilkin təkliflərinə dəyişiklik edə bilərlər, bütün məlumatlar elektron formada saxlanır. Bu kontekstdə e-kataloqlardan istifadə edilə bilər.

Sistem vasitəsi ilə satınalma arzusunda olan satınalan təşkilatlar sistemdə qeydiyyatda olan bütün təsərrüfat subyektlərini təklif verməyə dəvət etməli və Avropa İttifaqının Rəsmi Jurnalına müqavilə fürsəti haqqında elan verməlidirlər. Bu, sistemdə qeydiyyatda olmayan təsərrüfat subyektləri üçün müsabiqədə iştirak etmək imkanı yaradır. Daha sonra satınalan təşkilat qalib gələn təsərrüfat subyektinə sifariş verir.

Həmçinin bax: *Satınalmalar haqqında 11-ci Xülasə – Satınalma vasitələri*

## E-satınalma sistemlərinin istismara verilməsi və idarə edilməsi haqqında qeyd

E-satınalmanın sadəcə bir vasitə olduğunun başa düşülməsi vacibdir. Bu, zəif satınalma praktikalarını yaxşılaşdırmır və satınalma sistemi əməliyyatları zamanı qarşıya çıxan köklü problemlərin sehrli həlli hesab edilməlidir. Zəif praktikalar e-satınalma sistemləri vasitəsi ilə asanlıqla əbədiləşdirilə bilər. E-satınalma satınalma prosesinin Direktivin tələblərinə uyğun olduğunun təmin edilməsi ehtiyacını aradan qaldırmır və yalnız müəyyən satınalmaların ehtiyaclarına cavab verir.

Həmçinin qeyd edilməlidir ki, e-satınalma vasitələrinin və proseslərinin qəbulu yavaş-yavaş irəliləyə, xərclərə səbəb ola və özünəməxsus çətinliklərə malik ola bilər. Yuxarıda qeyd edilən Yaşıl Sənəddə Aİ aşağıdakılar daxil olmaqla e-satınalma zamanı meydana gələb bir sıra problemləri vurğulayır:

- **Texnologiya:** Satınalma əməliyyatlarının bütün mərhələlərində e-satınalmaların tətbiqinə icazə verən texnologiyalar mövcuddur, lakin texnoloji vasitələr bahalı ola və ya satınalmaların müəyyən mərhələlərində istifadəsi o qədər də yüksək nəticə verməyə bilər. Bəzi üzv dövlətlərdə bu "problemdən yayınma" ilə, yəni texniki cəhətdən daha az tələbkar həll üsullarından və ya onlayn və oflayn kommunikasiya formalarından birgə istifadə ilə nəticələnmişdir. Bu, məsələn xüsusən daha mürəkkəb müqavilələrdən söhbət gedən zaman seçim və qiymətləndirmə üçün dəlil rolunu oynayan sənədlərin təmin edilməsi və ya avtomatlaşdırılmış qiymətləndirmə ilə əlaqədar müşahidə edilmişdir.

- **Satın alan təşkilatların iştirakı:** E-satınalma öhdəlik kimi müəyyən olunmadıqda, satınalan təşkilatların uyğunlaşması ləng gedir. Aİ-nin fikrincə, bu, daxili sistemlərin yenidən təşkil edilməsi xərcləri və üstünlüklərdən xəbərdarlığın az olması ilə bağlı ola bilər. E-satınalmaya sərmayə qoyuluşunun ehtimal edilən riskləri, o cümlədən texnologiya - mövcud informasiya sistemləri ilə inteqrasiya, təhlükəsizlik və nəzarət mexanizmləri ilə bağlı risklər narahatlıq doğurur.

- **Təchizatçıların iştirakı:** Təchizatçılar heç də hər zaman elektron sistemə keçidin faydalarının fərqində olmurlar. Kiçik və orta müəssisələr xüsusən birləşmə və mərkəzləşmə ilə müşayiət olunan e-satınalmanın onları satınalma bazarından sıxışdırıb çıxara biləcəyindən narahatdırlar. Təchizatçılara təsir göstərən daha bir məsələ bəzi e-satınalma proseslərinin ağır tələbləri, xüsusən təchizatçının qeydiyyatı və iddiaçının həqiqiliyinin müəyyən edilməsi

proseslərinin doğurduğu çətinliklərlə bağlıdır. Xarici iddiaçılarının iştirakını məhdudlaşdırdığı halda, bu cür proseslər və tələblər Direktivin və Sazişin tələbləri ilə ziddiyyət təşkil edə bilər.

- **Ümumi standartların yoxluğu:** Təchizatçılar müxtəlif e-satınalma platformaları, sistemləri və sistemlərin funksionallığı ilə bağlı problemlərlə qarşılaşırlar. Bu, e-satınalma sistemlərinin bir-birlərinə uyğunlaşdırılması və standartlaşdırmanın artırılması ehtiyacına dəlalət edir, həmçinin milli elektron sistemlərin qarşılıqlı surətdə tanınması ilə bağlı çatışmazlıqla əlaqədardır.

## Əlavə ədəbiyyat siyahısı:


- Avropa Komissiyası (2010) *Aİ-də e-satınalmaların istifadəsinin genişləndirilməsi haqqında* yaşıl sənədin son variantı - COM (2010) 571 və müşayiətedici saylı Komissiya heyətinin İşçi sənədinin son variantı - SEC (2101) 1214
- Avropa Komissiyasının e-satınalma haqqında internet saytı: http://ec.europa.eu/internal_market/publicprocurement/e-procurement/index_e